# MİRAJ - ALDADICI İŞIQ EFFEKTİ...

**İsaxanın hekayələrində birinci şəxs əsasən yardımçı rolda işrirak edir; əsas qəhrəmanın həyatına müd-axilə etmədən hadisələri çözmək, xarakterlərin açılmasını təmin etmək baxımından bu hekayənin də əvvəlində birinci şəxs nisbətən fəaldır. Sonra bir növ hadisələr öz axarına düşür və oxucu əvvəlcə mənən saf, sağlam bir ailənin faciəyə aparan tale yolu ilə tanış olur. Viktor elm adamıdır. Çünki birinci şəxs onunla hansısa bir elmi konfransda tanış olub. Sonra bu tanışlıq dostluğa çevrilir. Viktorun ziyalılığına, təmiz sevgisinə rəğmən onun ailə xoşbəxtliyinə oxucu elə bəri başdan inanır.**

## *"Deyirlər qadın quş kimidir - ovcunda möhkəm sıxsan boğulub ölər, ovcunu bir az boş tutsan uçub gedər..."*



*Əli Rza XƏLƏFLİ*

İsaxan hekayələrində ədəbi qəhrəmanlarının hisslərini və həyəcanlarını psixoloji dəqiqliklə vermək üçün onları müəyyən situasiyalarda olduğu kimi təsvir edir. Bir növ oxucu əsərin qəhrəmanını öz nitqləri ilə tanıya bilir. Onların hansı istək və arzularla yaşadığına vaqif olur. Viktorun sevgilisi İrinanın monoloqu varlığında dumduru bir gənc qadın taleyini görmək baxımından çox maraqlıdır: *"Dünya çox qəribə yerdir. Uşaqlıqdan bir yerdə olduğun, hər xasiyyətinə bələd olduğun, sonradan da səni dəlicəsinə sevən birinə, heç uf demədən, yox deyirsən, amma ilk dəfə gördüyün, heç əməlli-başlı tanımadığın, üstəlik xüsusi zahiri görkəmi ilə də seçilməyən, birinin (o, Viktora baxıb gülümsündü) yanına düşüb Orenburqdan Moskvaya gəlirsən, ona qulluq etməyi özünə borc bilirsən, onun üçün gülürsən, onun üçün ağlayırsan, bir sözlə, onun üçün yaşayırsan. Qəribə deyilmi? Ya bəlkə o, heç Orenburqa gəlməsəydi? Sən ona rast gəlməsəydin onda nə olardı, nə baş verərdi? Yox, yox, görünür, taleyin qədəri beləymiş - o, mütləq Orenburqa gəlməliydi, mən də mütləq onu görməliydim. Viktor, mən səni sevirəm. Bax, bakılı dostumuzun yanında söz verirəm, məni səndən yalnız ölüm ayıra bilər"*. Necə inanmayasan bu səmimi duyğularla ifadə olunmuş sözlərə? Necə qibtə etməyəsən gənc qadının öz ərinə bu qədər dərəcədə hissiyatla bağlanmağına? Oxucuya elə gəlir ki, həyatın hər hansı bir gərdişi bu gənc qadının sevgisini sarsıda bilməz. Nə qədər mənəvi tufanlar baş versə də, İrinanın həmin tufanlardan alnıaçıq çıxacağına inanmamaq mümkünsüzdür. Bu sözlərin, hissiyatla ifadə olunmuş sevginin cavabını Viktor da demək olar ki, həmin dalğada bəyan edir: *"Viktor ayağa qalxıb ona yaxınlaşdı: "Bağışla, mənim cənnət quşum, amma həyatımda ilk dəfə səninlə razılaşmayacam. Bizi ölüm də ayıra bilməz, çünki mən sənsiz yaşaya bilmərəm, yəqin ki, sən də mənsiz. Ölsək də bir yerdə ölək. Bu talenin bizə ən yaxşı hədiyyəsi olar"*. Hə necədir? Bir-birinə yaraşırmı? Bir-birini tamamlayırmı? Yenə də təkrar eləməyə dəyər. Qibtə olunası sevgi, örnək tutulası sevgi. Sanki müəllif demək istəyir ki, əsil xoşbəxtlik sevgi ilə süslənir. Hətta iki gəncin bir-birinə olan sevgisinin etirafını dinləyənlər də məmnundurlar, alqışlayırlar bu sevgini: *"Hamı əl çaldı, "Qorka, qorka" deyə qışqırdılar. Sevgililər bir-birinə sarıldılar"*. Ancaq görünür, təkcə sevməklə, ruhən bir-birinə bağlanmaqla iş bitmir. Həyatın qarşıya çıxaracağı bəd təsadüflərdən sevgini qoruya bilmək də əsas şərtdir. Viktorun dostu olaraq birinci şəxs bir neçə ildən sonra biləndə ki, bu sağlam özüllü ailə dağılıb, çox təəccüblənir.

Bundan sonra hadisələrin gedişini biz Viktorun söhbətlərindən və İrinanın etiraflarından öyrənirik. Viktor sevgisinə sadiq bir ər kimi İrinanın hər cür qayğısını çəkməyə hazırdır. Hətta baş verən həyat uçqununun özü də onun hədsiz qayğıkeşliyindən bəhrələnir. Viktor arvadından on yaş böyükdür. Ancaq gözəl qadınını maddi və mənəvi baxımdan təmin etmək üçün hər cür cəfaya hazırdır.

İrina ilə Viktorun yaşadıqları şəhərdə bir gecə oteldə qalmaları bu ailənin tar-mar olmasının başlanğıcına çevrilir. Viktor növbəti dəfə yaradıcılıq ezamiyyətində olanda İrina içkinin təsiri altında həmin otelə gedir. Buradakı ötəri tanışla, xidmətçi oğlanla gecə keçirir. Və beləliklə, yolunu azır. Viktor bunu çox tez başa düşür. Hətta İrina o qədər korlanır ki, bir otel quşuna çevrilir.

Viktorun dostu olaraq birinci şəxs İrinanı da tapıb onu görmək, dinləmək istəyir. İrina taleyinin həyatın dibinə enmiş yolları haqqında ona danışır. Və olub-keçənləri gizlətmir, olduğu kimi danışır. Hətta sözünün sonunda ailə dostu kimi birinci şəxsə Viktorun onu bağışlaya biləcəyi haqqında istəyini də bildirir. Bu, mümkün olacaqmı? Viktor onu bağışlaya bilərmi? Bunu demək mümkün deyil, ancaq birinci şəxs İrinadan ayrılarkən onun əlindən öpür. Müəllifin qeyd etdiyi kimi siqaret iyisi verən əlindən.

Bu kiçik epizod, deyəsən, xüsusi məna daşıyır. Ailə dostu kimi birinci şəxs İrinanın öz faciəsini dərk etdiyinə inandığını təsdiq edir. Öz səhvini anlayan, faciəsini dərk edən insan mənən yenidən doğulmaq imkanına malikdir. Amma İrinanın bu etirafları öz ərinə etməyə gücü çatacaqmı? Viktor olub-keçənləri unuda biləcəkmi? Keçmiş arvadının səmimiyyətinə inanancaqmı? - Bunları gələcək göstərər.

Düşünmək olar ki, müəllif sağlam özüllü ailənin dağılmasında insanın zərərli vərdişlərinin də təsir edici gücdə olduğunu diqqətə çatdırmaq istəyir. Görünür, ailə həyatında ciddi tələblər də xüsusi əhəmiyyətə malikdir. İrina ərindən belə bir ciddiyyət görmədiyi üçün də hədsiz sərbəstliyə qapılır. Və bu da müəyyən mənada ailənin sarsılmasına şərait yaradır.

Böyük sevgi hər cür təqdirə layiqdir. Ancaq görünür, böyük sevgini qoruya bilmək üçün böyük fədakarlıq da gərəkdir.

Mən çox təəssüf elədim Viktorla İrinanın sevgi faciəsinə...

***

İndi "Otel quşunun etirafı" hekayəsinə daha yaxından baxmaq, hekayənin əhatə etdiyi psixoloji mühiti daha diqqətlə nəzərdən keçirmək hadisələrin acınacaqlı nəticəyə aparan səbəblərini araşdırmaqla yazıçının nə demək istədiyinə yetmək olar - qənayətindəyik. Onsuz da həyatdakı hadisələrin hamısı bir-biri ilə zəncirvari şəkildə bağlıdır. Bir hadisə digərinin davamıdır və bu zəncirvari əlaqədə özündən sonra gələn hadisənin başlanğıcına çevrilir.

Həmişə mənə elə gəlib ki, hekayə janrında yazmaq müəllifləri bir o qədər cəlb etmir. Hərçənd ki, dövrün sürəti az yazı ilə daha çox informasiya vermək tələbini zərurətə çevirib. Bu mənada İsaxanın hekayələri xüsusilə diqqəti cəlb edir. Özü də müəllifin hekayə yaradıcılığında hadisəçilikdən daha çox psixoloji məqamların dərinliklərinə varmaq, qəhrəmanların mənəvi mühitinə nüfuz etmək istəyi daha üstündür. İsaxan hekayələrində öz qəhrəmanlarını nə qədər çılğın hissləri ilə təqdim etmək istəyirsə, bir o qədər də onları cəmiyyətin ümumi ahəngində göstərə bilir. Başqa sözlə, o şüuraltı belə bir hissi təlqin edir ki, hər hansı bir şəxs əməlinə görə təkcə özü cavabdeh deyil. Onu əhatə edən mühit də razılaşdığımız və ya razılaşmadığımız hər hansı bir əməl üçün məsuliyyət daşıyır.

"Otel quşunun etirafı" hekayəsi iki dostun telefon danışığı ilə başlanır: *"Telefonun zəngi çaldı Moskvalı bir rus dostum idi:*

*– Tbilisiyə üç günlüyə konfransa gəlmişəm. Bu gün son günümdür. Çoxdandır, Bakıda olmamışam, deyirlər, Bakı çox gözəlləşib. İstəyirəm, gəlib bir-iki gün orda qalım, sonra da Moskvaya. Etiraz etmirsən ki?*

*– Səni görməyimə çox şad olaram dostum. Yəqin ki, İrina da səninlədir. Otağınızı hazırlayıram.*

*- Yox, yox, tək gəlmişəm. Bilirsən, dostum, səninlə görüşmədiyimiz müddətdə başıma çox şeylər gəlib, İrina ilə ayrılmışıq.*

*- Sən nə danışırsan, Viktor?*

*- Hə, dostum, hə. Gələndə hamısını danışaram. Sabah səhər 11:50-də reys var, bilet alıram.*

*- Gözləyirəm. Qarşılayacam.*

*- Sağ ol, dostum. Hələlik"*.

İlk baxışdan ciddi təəccüb doğurası heç nə yoxdur, hərçənd ki, təzə xəbəri eşidən dost qulaqlarına inanmır. İki sevgilinin bir-birindən ayrılması onda təəssüf doğurur. Bu da təbii həyat hadisəsi kimi qarşılanır. Ancaq bu təbii həyat hadisəsinin kökünə varmaq istəyi artıq oxucu marağını təmin edir. Canlı dildən gələn ifadə ilə fikrimizi çatdırmaq istəyiriksə, deməliyik ki, bir növ oxucunun "dalağı sancır" nə olub, necə olub... Axı insanlara inamını köklü psixoloji müşahidələr əsasında təmin edən birinci şəxs sıradan bir nəfərlə ailəvi dostluq münasibəti qura bilməzdi. Onun güvəncli olduğu ziyalı zümrəsinin, elitar mühitin adamları kimi tanıdığı Viktor və İrinanın arasında yaranmış ixtilafın görünür daha ciddi səbəbləri var.

Bəs bu səbəblər nə ola bilərdi. Hansı səbəblər ortaya çıxıb ki, ciddi ixtilafa yol açıb?

Birinci şəxsin yaratdığı tanışlıq əsasında Viktorun yaşını təyin etmək olar. Əgər birinci şəxs 50 yaşına çatıbsa və Viktor da ondan 20 yaş kişikdirsə, demək ərindən 10 yaş cavan olan İrinanın 20, Viktorun isə 30 yaşı var. Cüzi fərqlə yaş məsələsi bu cür görünür. Viktor yüksək ixtisaslı alimdir. İrinanın təhsili haqqında heç bir məlumat verilmir. Hətta yaşına görə də belə qənaətə gəlmək olar ki, İrina gözünü açanda ər sevdasına düşüb və tale onu Viktorla qarşılaşdırıb. Şübhəsiz, burada dünya görüşlərinin fərqi açıq-aşkar özünü biruzə verir. Və elə bu yerdə dəqiq belə bir qənaəti biz də təsdiq edərik ki, ixtilafların yaranmasında dünya görüşü fərqlərinin ziddiyyət yaratması mümkündür və bəlkə də, ixtilaflar üçün başlanğıcdır. Doğrudur, bunu ümumiyyətlə cəmiyyətə aid etmək olmaz. İnsanların temperamenti, ailədən aldığı tərbiyə, düşdükləri mühit müəyyən istiqamətlər verə bilər və çox zaman cəmiyyətdə ümumi ahəngin pozulmamasında bu məsələlərin xüsusi təsiri və yeri var.

İnsanların xasiyyəti və ailədən aldığı tərbiyə məsələsi də ötəri toxunduğumuz bir məqam kimi yadda qalır. Və istər-istəməz bizi hadisələri qabaqlayacaq belə bir fikir deməyə vadar edir. Hekayənin lap əvvəlində birinci şəxsin retrospektiv (keçmişə baxış) müstəvidə yaddaşa gətirdiyi bir məqam var. İrinanın birinci şəxsin də iştirak etdiyi məclisdə çıxışı zamanı dediyi sözlər. Həmin mətni biz girişdə vermişik. İrina əri və ərinin dostları arasındakı monoloqunda (müəllif bunu tost adlandırır) belə bir ifadə işlədir ki, uşaqlıqdan bir yerdə olduğun, hər xasiyyətinə bələd olduğun sonradan da səni dəlicəsinə sevən birinə, heç "uf" demədən, "yox" deyirsən, lakin ilk dəfə gördüyün, heç əməlli başlı tanımadığın, üstəlik, xüsusi zahiri görkəmi ilə də seçilməyən birinin yanına düşüb Orenburqdan Moskvaya gəlirsən..." Hələ bu arada bir müəllif qeydi də var. "Xüsusi zahiri görkəmi ilə seçilməyən birini" ifadəsini işlədərkən İrina Viktora baxıb gülümsünür. Bunu da ciddiyə alsaq, demək İrina sürətpərəst də deyil.

Davamı 9-cu səhifədə

# MİRAJ - ALDADICI İŞIQ EFFEKTİ...

Əvvəli 8-ci səhifədə

Demək, İrinanı Viktora bağlayan əsaslı bir cəhət nədirsə, onu aşkara çıxarmaq, başqa sözlə, İrinanın daxili-mənəvi mühitinin istək sərhədlərini duymaq lazımdır. Zənnimizcə, bu İrinanın macəraçılıq təbiəti ilə bağlıdır. O, görmədiyi, tanımadığı, bilmədiyi aləmləri görmək, duymaq, kəşf etmək istəyir. Hətta hekayənin bir yerində göstərilir ki, İrina ötəri küsülülüyü aradan qaldırmaq üçün Viktorun iş yerinə gəlib onunla barışır və onu romantik bir yerə aparmasını xahiş edir. Beləliklə, İrinanın əyalətdən paytaxta gəlmək istəyi yeni macəra tələbatını aşkara çıxarır. İndi artıq o, Viktorla birgə yaşadığı paytaxtdakı ev, ailə mühitini kifayət qədər kəşf olunmuş, tanınmış hesab edir. Və indi onun yeni macəra istəyi, axtarışı ortaya çıxır. Doğrudur, onların bir-birinə əbədi sədaqətli olacaqları haqqındakı manifestləri də hələlik inandırıcı təsir bağışlayır. Viktor kifayət qədər loyal adamdır.

Arvadının psixoloji, mənəvi mühitinin anatomiyasına varmaq istəmir, sadəcə onun arzularının təminatçısı kimi öz borcunu, əgər belə demək mümkünsə, ləyaqətlə yerinə yetirir.

Beləliklə, İrina daha bir macəranın içindən keçir. Moskvanın mərkəzindəki otellərin birində əri ilə arzuladığı romantik gecəni keçirir. Şübhəsiz, bu gecə onun yaddaşında xüsusi bir "dad" kimi qalır.

Həmin gecə hansı cəhətləri ilə İrinanın yaddaşında yeni macəra axtarışına impuls verə bilərdi. Buna da hekayədə müəyyən işarələr var. Ancaq bu barədə bir qədər sonra.

Axı biz hələlik bu məqamları Viktorun dilindən dinləyirik. Yazıçı əsər boyu ədalətli hakim rolunda öz missiyasını axıracan dəqiq aparmağa çalışır. Ona görə də hələlik İrinanı yox, Viktoru dinləyir: "*Varşavaya bir aylıq ezamiyyətə getmişdim. Qayıdandan sonra hiss edirdim ki, İrina dəyişib; səksəkəli olmuşdu, mənimlə söhbət edərkən belə gözləri yol çəkirdi. Şübhələr içimi didirdi, onu izləməyə başladım. Gördüklərimin şokundan hələ də ayılmamışam. İrina bizim getdiyimiz həmin oteldə... O, həmin oteldə fahişəlik edirdi. Mənim cənnət quşum indi bir otel quşuna çevrilmişdi. O gün onu otelə aparmaqla, mən özüm öz həyatımı məhv etmişdim. Deyirlər, qadın quş kimidir - ovucunda möhkəm sıxsan, boğulub ölər, ovucunu bir az boş tutsan, uçub gedər. Uçub getdi mənim cənnət quşum, qoruya bilmədim mən səadətimi.*

*- Axı bu necə ola bilərdi, Viktor? İrina necə o yola düşə bilərdi?*

*- Açığı, bu haqda heç maraqlanmadım da. Artıq nə mənası var idi ki, baş verənlər baş vermişdi.*

*- Bəs sonra?*

*- Sonra da... sonra da ayrıldıq. Bir ildir ki boşanmışıq.*

*Viktor özünü tox tutmağa çalışsa da hiss edirdim ki, o, mənəvi əziyyət çəkir. Ona ürək-dirək vermək üçün əlimi kürəyinə vurdum. Buna bənd imiş kimi, doluxsundu, nə qədər çalışsa da, göz yaşlarına hakim ola bilmədi, hönkürərək yenə pıçıldadı: "Uçub getdi mənim cənnət quşum, qoruya bilmədim mən səadətimi".*

*Gecədən xeyli keçmişdi. Biz yatmağa getdik. Viktor iki gün Bakıda qaldıqdan sonra onu Moskvaya yola saldım*". Əgər belə demək mümkünsə, burada hekayənin birinci hissəsi başa çatır. Və bu hissə bizdə hansı təəssüratı oyadır. Bizə elə gələ bilərdi ki, Viktor həssas insan deyil, amma o, bir aylıq ezamiyyətdən sonra qayıdıb arvadı ilə görüşən kimi sanki İrinanın dəyişdiyini hiss edir. Şüuraltı belə bir məqam duyulur ki, İrinada bir aylıq ayrılıqdan sonra cinsi tələbat, kişi istəyi hissi sanki korşalıb. Bu hissi Azərbaycan bayatıları ən müxtəlif çalarlarda da verir. Özü də hələ heç xəyanətin başlanmadığı, cüzi bir işartının özünü göstərdiyi məqamda həssas aşiq bunu belə ifadə edir: "*Mən aşiq baxdı yarım, bəxtimin taxdı yarım; Üzündə göz izi var, sənə kim baxdı yarım?*". Təkcə bir göz izi ilə yarının, sevgilisinin ovqatını duymaq bütün varlığını sevgisi süsləmiş olan aşiqə xas keyfiyyətdir. Hekayənin qəhrəmanında baş verən psixoloji əhval bütün təzadları ilə üzə çıxır. Viktor artıq onu nəyin gözlədiyini anlamışdır. Və onun üçün İrinanı ifşa etmək o qədər də çətin olmur. Beləliklə, ailə dağılır.

Dağılmanın daha bir səbəbi də gərək diqqətdən yayınmasın. İrinanın və Viktorun evlənməsindən xeyli vaxt keçib və onların uşaqları dünyaya gəlməyib. Təəssüf ki, tərəflərdən heç biri məsələnin kökü ilə maraqlanmır... Hər halda əsərdə buna işarə yoxdur.

Ədalətli hakim macəralar silsiləsini unutmur. Hətta onun Viktorla görüşməsindən üç il sonra o, Moskvaya konfransa gedərkən köhnə dostlarını axtarıb onların taleyi ilə maraqlanmağı qərara alır. Viktoru tapa bilməsə də, İrinanı tapır. Özü də həmin "məşhur" "Azimut" otelində.

Zənnimizcə, müəllif "Azimut" adını təsadüfi seçməyib. "Azimut" gəmiləri istiqamətləndirən sixemdir. Və elə müəllifin özünün düşündüyü kimi artıq İrinanın taleyini həll edən (təəssüf ki, faciəvi istiqamətdə) "Azimut"da onunla görüşür.

İndi hər şey ona aydın idi. İrina həyatını müxtəlif tərəflərə istiqamətləndirən "Azimut"un ixtiyarına buraxmışdı.

Birinci şəxslə görüşündə müəyyən prosedur mərhələdən sonra İrinanın dili açılır: "*Viktor ezamiyyətə getmişdi. Rəfiqələrimlə bir kafedə toplaşıb vaxt öldürürdük. Şirin söhbətə başımız o qədər qarışmışdı ki, hərəyə bir şampan şərabı içdiyimizdən belə xəbərimiz olmamışdı. Qalxanda hiss etdim ki, şampanın təsirindən başım fırlanır. Qızlardan ayrılandan sonra birdən-birə o sarışın qarsonun surəti canlandı xəyalımda, mənə yenə göz vururdu. Nə qədər müqavimət göstərməyə çalışsam da, hisslərimlə bacara bilmədim, bir taksiyə oturub, evə yox, otelə gəldim. Qəbul guşəsində həmin oğlan məni görüb çox sevindi: Sevgiliniz hardadır, - deyə soruşdu. "Tək gəlmişəm, bir az tək qalmaq istəyirəm, mənə bir otaq verin", - dedim. O, cəld bir açar götürdü, məni otağa qədər yola saldı - bu mənim Viktorla ilk dəfə gecələdiyim otaq idi. Şampan şərabının təsiri başımı elə dumanlaşdırmışdı ki, özünü pəncərənin şüşəsinə çırpan quşcuğaz kimi, otaqda ora-bura dəyirdim. Necə baş verdi bilmirəm, özümü o sarışın qarsonla birlikdə yataqda hiss etdim. O qədər məst olmuşdum ki, gecəni onunla keçirdim. Qalxanda başımın üstündə yenə o dayanmışdı - mənim dünyamı dəyişən o sarışın qarson. Mən artıq ona elə öyrəşmişdim ki, əlimə imkan düşən kimi otelə onun yanına gəlirdim. Bir dəfə yenə onun yanına gəlmişdim, otaqda onu gözləyirdim. O gəldi, lakin tək deyildi, yanında yekəpər bir nəfər vardı. Məni bir tərəfə çəkib: O, iki saata 300 dollar verir, onu yola sal, - dedi. Başımdan elə bil qaynar su tökdülər. Onu döyəcləməyə başladım, çıxıb getmək istədim. O isə sakit səslə: Özün bilərsən, amma unutma ki, sənin sevgilini tanıyıram, - dedi. Bu sözlər qol-qanadımı sındırdı. Viktorun hər şeyi biləcəyini düşündükcə başımdan tüstü çıxırdı. Nə qədər yalvardımsa, olmadı. Axırda əlacsız qalıb, o yekəpər müştərini yola salmalı oldum. Beləcə, o qarson mənim qədərimi cızmışdı - mən tez-tez bu otelə gəlir, müştərilərlə vaxt keçirməli olurdum. Çox keçmədi ki, Viktor baş verənlərdən xəbərdar oldu və onun israrı ilə boşandıq. Bir gün eşitdim ki, o sarışın yaramazı bu əməllərinin üstündə öldürüblər, amma nə fayda - mən artıq "otel quşu"na çevrilmişdim*". Təəsüratın bizə yaxın tərəfindən başlayaq. Həyatda hər kəs öz cəzasını tez-gec əməlinə görə alır. İrinanın xəyanətinə şərik olan, onu xəyanət yoluna çəkən, hisslərini sürətləndirən sarışın oğlan öldürülür, yəni əməllərinə görə haqlı cəza alır. Doğrudur, burada bir məqam da diqqəti cəlb edir. İrinanın içkiyə meyilliliyi, bu da əsaslı səbəb olmasa da, hər halda İrinanın zəif xarakteri ilə uzlaşan əməlinə yardımçı olur. Və təəssüflə qeyd etməliyik ki, zəif iradəli insanlar üçün maddi imkanın da kifayət qədər təsiredici gücü var. Bütün otellər qazanc mənbəyidir. Leqal və ya qeyri-leqal şəkildə otelin içinə daxil olursansa, buranın havası da pul tələb edir. Pul isə zəif iradəli, yüngül həyat keçirməyə meyilli olan İrina kimilərinə daha çox vacibdir. Özü kimi rəfiqələrinin mühitində "ulduz" olmaq üçün pulun əhəmiyyəti qədərsizdir. Üstəlik İrinada sevgidən kənar bir hiss də - cinsi yaxınlıq istəyi də artıq onun üçün həyati tələbata çevrilib.

İrina artıq bataqlığın içindədir. O, təpədən-dırnağa qədər lehməyə batıb. Xilas olmağa cəhd göstərməsə də, hərdən düşüncəsində yanan işığın fonunda öz həyatının dəhşətli mənzərəsini kifayət qədər aydınlığı ilə görə bilir. Bunu onun təkcə daxili-mənəvi mühitinin sarsıntıları yox, həm də zahiri yorğunluğu bir növ yaşadığı həyatdan bezikmiş görünüşü də aşkara çıxarır. İrina artıq yüyənsiz at kimidir. At hissiyatı ilə düzgün istiqaməti bilsə də, çox vaxt sərbəstliyi çəməndə özbaşına həyat tərzi xəbəri olmadan onu yırtıcının ağzına da aparıb çıxara bilər.

Beləliklə, həyatın ilk baxışdan təmtəraqlı görünə bilən tərəfinin arxasında sızlayan könül çırpıntılarını müşahidə etmək oxucuda da təəssüf doğurur. Hətta ədalətli hakim rolunda çıxış edən birinci şəxsin təəssüf dolu sualına ("Viktor mənə deyəndə qulaqlarıma inanmadım, axı bu necə ola bilərdi İrina?") cavab vermir, əvəzində Viktorun əhvalını soruşur. Bu da istər-istəməz onun Viktorla keçirdiyi günlərin saflığı, ağlığı üçün darıxdığını, əlindən uçurduğu xoşbəxtliyi üçün həsrət çəkdiyini göstərir. Hətta müsahibi ilə söhbətində Viktorun onu bağışlamaq istəyinin də olub-olmamağını öyrənməyə çalışır. Özü də yaxşı bilir ki, o həyatı artıq geriyə qaytarmaq çox çətindir. Və təəssüf ki, özü bu istəyə başı daşdan-daşa dəyəndən sonra gəlib.

İrina hələlik bütün acılığı ilə yaşadığı "şirin" həyatın qucağındadır. Bəlkə gündə neçə dəfə müxtəlif sifət görür. Hələlik gənc olduğu üçün bu sifətlər onun maddi təminatını ödəyir. Amma bunun da tezliklə tükənəcəyini İrina bilməmiş deyil. Necə deyərlər bizim azərbaycanlılar demiş "gedər bu gözəllik, sənə də qalmaz". Təəssüf ki, İrina sevgisini yüngül həyatla əvəzləmişdir. Hekayənin sonuna yaxın müəllif İrinanın daha bir monoloqunu verir: "*Bilirsən burda məni hər gün, özü də bir dəfə yox, bir neçə dəfə təhqir edirlər. Müştərilərin baxışları, gülüşləri, hətta incə təbəssümləri belə məni təhqir edir. Viktora dönmək, yalvarıb üzr istəməyi o qədər istəyirəm ki! Amma bacarmıram. Viktorun da bütün bu olanlardan sonra bu insanlar kimi, məni təhqir edib qovacağını düşündükcə (onun buna haqqı da var), çox qorxuram. Ona qarşı olan sevgimin yox olacağından qorxuram. Qoy mən lap məhv olum, qoy insanlar məni təhqir etsinlər, lakin Viktora olan məhəbbətim yox olmasın. O sevgimdir mənə bütün təhqirlərə dözmək gücü verən, o məhəbbətimdir məni yaşadan. O hissimi itirsəm, içim boşalar, həyatım bitər. Yaxşısı budur ki, qoy o sevgi həmişəlik ürəyimdə qalsın. Mən bunun üçün, bundan sonra da mənim üçün heç bir şey kəsb etməyən bu insanların təhqirlərinə dözməyə razıyam, təki Viktora olan məhəbbətim sönməsin, ölməsin*". Doğrudur, İrinanın monoloqu səmimi təsir bağışlayır. Ancaq inanmıram ki, oxucu bu səmimiyyətə axıracan inansın. Çünki mən özüm də inana bilmədim. Səbəb də budur ki, İrina buraya qədər yaşadığı həyata təəssüf etsə də, geriyə dönüş, yeni istiqamət haqqında qəti qərara gəlməyib. Çünki əsərin sonunda da ədalətli hakim rolunda çıxış edən birinci şəxslə ayrılanda bu görüş haqqında Viktora heç nə deməməyi xahiş etməsi qürurun məntiqi deyil, gücsüzlüyün məntiqidir. Hələ də özünə inanmır o geriyə dönə bilər, ya yox...

Bu yerdə birinci şəxsin İrinanın əlini öpməsi məqamı bir daha yada düşür. Bu da onun hər bir insanın ayrılıqda ehtirama haqqı olduğunu diqqətə çəkir.

Şərq panteizmi belə bir düşüncə diktə edir. Allah yaradır və sonra yaratdığının işinə qarışmır...

Kim bu yolu necə gedəcək, kim həyatı necə yaşayacaq bu onun öz işidir. Gərək elə yaşayasan ki, sonradan keçdiyin yola baxıb acı təəssüf hissləri keçirməyəsən.

Macəra axtarışı insanı heç də, həmişə dəfinələr adasına aparmır.

...Səhrada karvanlar yolu azanda susuzluq və bitməyən yolun ağrıları ölüm havası gətirir. Karvandakıların dəhşətli susuzluq əzabı başlayır. Və bu zaman uzaqda yaşıl vadi, şəffaf çaylar görünür. Karvan can atır gördüyünə, yaxınlaşdıqca görünən vadi daha əlçatmaz olur. Bu insanın psixoloji mühitində aldadıcı görünmə effekti yaradır.

Buna miraj deyirlər. Aldadıcı görünmənin sonu faciədir.

**Əli Rza XƏLƏFLİ**
**31.03.2021**